İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, **düşünərək yaşayanlar üçün**, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

*parlaq imzalar*

Kitabın sahibi: ______________________

Oxu tarixi: ______________________

# Mimoza Çiçəkləri

(şeirlər)

NƏRGİZ NASİR

İmzalar Nəşriyyat

| | |
|---|---|
| Buraxılışa məsul: | Nurman TARİQ |
| Redaktor: | Səbuhi ŞAHMURSOY |
| Korrektor: | Zülfi XƏLİLOV |
| Yekun oxunuş: | Amin SÜKUT |
| Bədii və texniki tərtibat: | İsmayıl SÜLEYMANLI |
| Üz qabığının dizaynı: | Azər ƏSGƏRZADƏ |

**Nərgiz Nasir**
**MİMOZA ÇİÇƏKLƏRİ**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2019, 96 səh.

**© Nərgiz Nasir / 2019**
**© Parlaq İmzalar MMC / 2019**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 71
Yeni İmzalar Seriyası – Şeir | 3

ISBN 978-9952-5251-5-1

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
fb.com/parlaqimzalar
0552595972 / 0552597259

# Mündəricat

Mən mimoza yarpağı, sən yağan yağış_________9
Anama __________________________________10
Çek ____________________________________11
Küləkli yollar ____________________________12
Zaman dedi _______________________________13
Başın sağ olsun, Vətən! ____________________14
Səda ___________________________________15
Ruhi-rəvanım _____________________________16
Parça-parça xatırla! _______________________18
Yol _____________________________________19
Bir arzu var uzaqlarda _____________________20
Tütək səsi ________________________________22
Bir ovuc dua ______________________________23
Ey insan _________________________________24
Zaman-zaman _____________________________25
Gecə üzü ________________________________26
Həyat nağıl görünəydi ______________________27
Yad daş _________________________________29
Tələsmişəm ______________________________31
O da unudub səni __________________________34
Qaçaqaç _________________________________36
Palitra __________________________________37
Çərpələng qoxusu __________________________39
Sükutun səsi _____________________________40

Həyatın bir anı ______________________________ 42
Gənclik ___________________________________ 46
Yük ______________________________________ 47
Bərəkətinə qurban olum _____________________ 48
Gəl _______________________________________ 49
Yuxu _____________________________________ 50
Qonşu evin işıqları __________________________ 52
Yağışda ___________________________________ 54
Sükutda ___________________________________ 56
Bax, beləcə ________________________________ 57
Nəfəslik ___________________________________ 59
Y, A, S, Ə, M, Ə, N __________________________ 60
Rəqsini unutma! ____________________________ 62
Qara vicdan ________________________________ 64
Haray _____________________________________ 65
Gecə yolçuları ______________________________ 66
Qovuşmaq _________________________________ 68
Gedəsən ___________________________________ 69
Vəfa ______________________________________ 72
Ömür qatarı ________________________________ 73
Noyabr ____________________________________ 75
Mən və sən _________________________________ 77
Qırmızı ____________________________________ 78
Bəlkə də ___________________________________ 79
Ətirşah çiçəyi _______________________________ 80
Şir ________________________________________ 82
Ünvanda ___________________________________ 84
Bir tikə ____________________________________ 85

Rəylər _____________________________________ 87

Bir gözünü qaldırıb səmaya bax...

## *Mən mimoza yarpağı, sən yağan yağış*

Dolub xatirələr yenə buludtək,
Yağır dünənlərim sabahlarıma.
Keçmişi mənimlə qoydun təkbətək,
Cəzasan, de, hansı günahlarıma?

Gələrkən hədiyyə etdiyin səni,
Sevinclə bəzədim xəyallarıma.
Sənsə oğurlayıb ümidlərimi,
Bənzətdin mimoza yarpaqlarına.

Gedişin dondurdu astanaları,
Gülüşüm buz tutdu yoxluğun üstdə.
Arxanca bağlayıb qapılarımı,
Çevirdim özümü cansız bir büstə.

Gözlərim qalıbdır ayaq izində,
Durmuşam yolunda bir mayak kimi.
Bəlkə, bir gün dönər, deyib içimdə,
Ehtiyat saxladım son nəfəsimi.

## *Anama*

Uşaq vaxtı yıxılardım duranda,
Anam gəlib dizlərimi ovardı.
Gözlərimin silib selin, suyunu
Toxtatmaqçün daş-dağalı qovardı.

Ordan qalxıb quşqonmaza qonardım,
Ayağıma sarıtikan batardı.
Çıxarmaqçün qorxma deyib, sancağın
Məndən əvvəl öz əlinə taxardı.

Qar yağardı, şaxta baba qurardım,
Oynayardım, əl-ayağım donardı.
Evə gircək sobamıza qaçardım,
Geri çəkib sinəsinə basardı.

Onda sanki çəkisizdi ağrılar,
Sevinc həmən üfürərdi, uçardı.
Yaş keçdikcə yığılırmış, sən demə,
Ayıldım ki, boyu necə ucqardı.

Ayıldım ki, ağrılardan anamın
Qara zülfü qış sazaqlı qarıdı.
Ayıldım ki, gün görməyən anamın
Günsüz ömrü yarıdan da yarıdı.

### *Çek*

Səhər yuxudan durub
Boylanıram şəhərə.
Bayır necə istidir,
Evim soyuqdur necə.

Keçib soba önünə düşünürəm...
Özümə
Yenə banan soyuram
Səhər üçün yeməyə.

Qulağıma anamın
səsi gəlir qəfildən:
– Adam kimi oturub
çörəyini yesənə!

Udqunuram,
Aldadıram anamı.
Yenə yaman qripəm,
İştahıma küsürəm.
Yenə bu bananı da,
Yarı yolda kəsirəm.

Çalan qapı zəngimizdir,
– Gəlirəm.
Çeki uzadan dayı:
– Yenə ən çox üşüyən
sizin mənzilinizdir.

## *Küləkli yollar*

Azıb bu şəhərin küləkləritək,
İtirib səmtimi sənə gəlmişəm.
Uzadıb əlini telimə bir çək,
Bax necə ruhuna səpələnmişəm.

Gör necə keçmişəm dar küçələri,
Hansı dalanlardan sənə çıxmışam.
Sahili dalayan ləpələr kimi,
Köksümü köksünün üstə yıxmışam.

Məni addım-addım sənə gətirən,
Örtülü buz yollar ılıqlanıbdır.
Gəlmişəm, divardan itib xatirəm,
Otağın ruhumla işıqlanıbdır.

Üstünü toz basan rəsmim oyanıb,
Gözündən vəfana boylanıb oğrun.
Gəlib qənşərində cismim dayanıb,
Əlində qış yükü, gözləri yorğun.

Dur, bir oxu kirpiyimin enişin,
Yanağımın cığırında var-gəl et.
Dur ayağa, ayağının gedişin,
Keçmişə göm, gələcəyə qürbət et.

Qaldır zamanının kədər duvağın,
Təqvim kürsüsündə həyat doğulsun.
Dur yandır çırağın bu boş qucağın,
Taleyə əbədi günəş yonulsun.

## *Zaman dedi*

Belə keçir günün bütün saatı:
Darıxıram öz əksimə zillənib.
Sanki evin bütün küncü-bucağı,
Hara baxsam, surətimə köklənib.

Belə keçir günün bütün saatı:
Öz səsim də qulağıma yadlaşır.
Səsi itir divardakı saatın,
Əqrəblərin rəqsi belə daşlaşır.

Belə keçir günün bütün saatı:
Xəyal uçub qanad açır otaqda.
Bir an üçün otaq donun dəyişir,
Sarısaçlı bir qız qaçır otaqda.

Belə keçir günün bütün saatı:
Xəyal sənlə soğan soyub sevişir.
Bir kiçik əl ətəyimdən yapışır,
Mətbəxdəki qoxu belə dəyişir.

Belə keçir günün bütün saatı:
Yaşım durur, axan olur göz yaşım.
Pəncərədə dona-dona qalıram,
Ayılıram, kədər alıb dağ başın.

Belə keçir günün bütün saatı:
Ümid bəzən özün uşaq aparır,
Tənhalığım təbəssümə qarışır.
Yan otaqdan tik-tak səsi ucalır,
Yoxsa qızım "kabluk"umla dolaşır?!

## *Başın sağ olsun, Vətən!*

Soyulub zaman-zaman millətimin dərisi,
Çox olub bu torpaqda acgözün ac hərisi.
Yazılıb tariximə saysız yurd faciəsi,
İçimdəki dərd-qubar, ey dinməyən nisgilim,
Başın sağ olsun sənin,
Başıqarlı Vətənim!

Alıb qeyrətsiz yağı neçə məsum canları,
Çəkib sinəyə yurdum günahsız qurbanları,
Allah əfv ətməz, əlbət, soyumu qıranları,
Dilimdə ahu-nalə, gözümdə min yaş mənim,
Başın sağ olsun sənin,
Başıqarlı Vətənim!

Hər ayımın başına atdılar qara şalı,
Bir ovuc torpaq üçün satdılar şərəf-şanı,
Burnunda körpə iyi qətl etdilər atanı,
Oğulsuz atam mənim, atasız balam mənim,
Başın sağ olsun sənin,
Başıqarlı Vətənim!

Sual verir qız da hey: "Atam axı hardadı?
Pencəyi də, papağı da – hər bir şeyi burdadı",
Hamı susur sükut kimi, qəlbləri qubardadı,
Nişan şalın yar daşına örtən bəxtsiz gəlinim,
Başın sağ olsun sənin,
Başıqarlı Vətənim!

## *Səda*

Ovuc-ovuc gedirəm,
Dizimin bağı çözülür.
Həsrət qaldığım yerdən,
Tanrının rəhmi tökülür.

Göz yaşıma ad qoyuram:
"Ürəyimin ağrısıdır".
Səda gəldi başım üstdən:
– Allahının sarğısıdır!

Topuğuma çomaq dəydi,
Sandım, Tanrı zopasıdır.
Dəryalardan soraq gəldi:
– Musa gəlir, əsasıdır.

Düşdüm od-alov içinə,
Dedim: – Nəyin bəlasıdır?
Meh yetirdi xəbərini:
– İbrahimin səfasıdır.

Sinəm üstə çökən dağa,
Nalə etdim: – Rəvamıdır?
Aşdım, Süleymana yetdim,
Gördüm haqqın şəfasıdır.

Könlümün başı söküldü,
Ovdum, hicran yarasıdır.
Yusifin göz yaşı axdı:
– Züleyxanın sevdasıdır.